# *ƏDƏBİYYAT*

**Türkan Əliyeva**
*BMU*

## MARQARET ETVUDUN "DAMAZLIQ QIZIN HEKAYƏTİ" ƏSƏRİNDƏ QADIN İSTİSMARININ TƏSVİRİ

**Açar sözlər:** *distopik baxış, totalitar cəmiyyət, cinsi ayrıseçkilik, qadın istismarı.*

**Key words:** *dystopian vision, totalitarian society, sexual indiscrimination, female exploitation.*

**Ключевые слова:** *дистопированный вид, тоталитарное общество, женская дискриминация, эксплуатация женщин.*

Kanadanın dünya şöhrətli yazarı, ədəbi tənqidçisi olan Marqaret Etvud hər zaman əsərlərində qadın haqqlarını müdafiə etməsi ilə diqqəti cəlb etmişdi. Onun bu qəbildən olan əsərlərindən biri də "Damazlıq qızın hekayəsidir" ("Handmaid's Tale"). Əsərdə Marqaret Etvud qadınların kişilər tərəfindən idarə oluna və dominantlıq edilə bilən əşya kimi qəbul edildiyi distopik cəmiyyəti təsvir edir. Əsərində təsvir etdiyi cəmiyyət Etvudun kişilərin dominant olduğu cəmiyyət haqqında baxışlarının əksidir. "Damazlıq qızın hekayəti"əsərində hadisələr Gilead Respublikasında cərəyan edir və əsas insani hüquqlardan məhrum olunmuş qadınların cəmiyyətdən təcrid edilməsi haqqındadır. Əsər tamamilə qadına qarşı olan futuristik, soyuq, totalitar, qorxulu və qəddar patriarxal cəmiyyəti təsvir edir. Totalitar cəmiyyət olan Gilead Respublikasında qadın tamamilə patriarxal cəmiyyətin kişi nümayəndələrinin nəzarəti altındadır. Qadınların müxtəlif yollarla istismar olunduğu aydın şəkildə görünür. Christine Gomez yazır:

"*The Handmaid's Tale is set in the future, in the Republic of Gilead, which occupies part of the territory of what was once the U.S.A. This is a dystopia which carries existing patriarchal tyranny and the victimization of women to an extreme. According to Atwood, everything in the book is true and has been already accomplished in some from in some society*" [3, 85]. '"Damazlıq qızın hekayəti"əsərindəki hadisələr gələcəkdə və bir zamanlar ABŞ-ın olmuş ərazidə cərəyan edir. Bu mövcud patriarxal cəmiyyəti və hər

yolla alçaldılan qadınları təsvir edən distopik əsərdir. Etvuda görə, kitabdakı hər şey həqiqətdir və bəzi cəmiyyətlərdə artıq gerçəkləşib'.

Rigney yazır: "əsər güc və onun universal formaları – diktatura, fironluq, işgəncə və vəhşilik ilə qarşıdurmanı əks etdirir" [6, 104].

Gilead patriarxal cəmiyyəti qadınların kişilərdən asılılığını gücləndirir və hər iki cins arasında balanslaşdırılmamış əlaqələri dərinləşdirir. Mackinnon yazır: "qadınları məhdudlaşdıran, haqqlarına müdaxilə edən yolların hamısı qadınlara qarşı cinsi ayrıseçkiliyin nəticəsidir" [5, 6]. Gilead Respublikası ciddi patriarxal krallıqdır. Bu əsər yavaş-yavaş qadınların kişilərin dominant olduğu cəmiyyət tərəfindən necə tabe edildiyini və istismar edildiyini üzə çıxarır. Qadınlar hətta təhsil, iş, mülkiyyət, dəbdəbəli geyimlər və makiyajdan məhrum ediliblər. Bu cəmiyyətdə qadınların öz adları deyilmir və yalnız şərti adları yazılmış niqab vasitəsi ilə bir-birindən seçilirlər. Onlara yalnız sonsuz qadınlar üçün uşaq dünyaya gətirə biləcək bir cismani varlıq kimi yanaşıldığından özlərinə qulluq vasitələri, kremlər verilmir. Gilead cəmiyyətində qadınların yaşaması üçün heç bir səbəb yoxdur. Onlar yalnız onlara hakimlik edən və alçaldan patriarxal quruluşun qeyri-insani qanunlarını dəstəkləyən bir sistemin quludurlar.

Gilead Respublikası fundamental Xristian teokratiyası tərəfindən idarə olunur. Ətraf aləmdə sifilis və zəhərli maddələrin yayılması nəticəsində əksər qadınlar və kişilər sonsuz olurlar və bunun nəticəsində Gileadda "Aids" adlanan elit təbəqə arasında demoqrafik böhran yaşanır. "Offspring"lər isə "uşağı olmayan" adlandırılırdı. İdarəçi təbəqə arasında doğum səviyyəsi çox aşağı idi. Elit təbəqə arasındakı bu problemin qarşısını almaq üçün hakimiyyət tərəfindən "handmaid"lər təyin olunur. "Handmaid" cəmiyyət üçün uşaq dünyaya gətirməkdə məsul olan və bu vəzifəyə təyin edilmiş qadınlardır. "Damazlıq qızın hekayəti" əsərinin baş qəhrəmanı Offred belə qadınlardan biri idi.

Əgər "handmaid"lər uşaq dünyaya gətirə bilmirlərsə, onlar xəstə,yaşlı və üsyançıların göndərildiyi koloniyalara göndərilərək cəmiyyətdən təcrid olunurdular. Christine Gomez yazır:"Handmaid's Tale əsərində qadınların uşaq dünyaya gətirə bilmək qabiliyyəti onların xilasolmasının əsas səbəbidir" [3, 90].

Qadınların hüquqlarının olmadığı bir cəmiyyətdə "handmaid"lərin hətta bir-biri ilə danışmasına icazə verilmir. Onlar özlərinin passiv mövcudluqlarını qəbul edir və bir fərd kimi inkişaf etməyə çalışmırlar. Bu cəmiyyətdə təyin olunduqları vəzifəyə görə fərqləndirilməkləri üçün qadınlar müxtəlif rəngdə geyinirdilər. "Ailəli xanımlar (komandirlərin həyat yoldaşları) mavi, sakit və itəatkar olan qızlar ağ, "martha" – orta yaşlı xidmətçilər yaşıl rəng, "aunt" (Gilead cəmiyyətinə xidmət edən rahibələr) qəhvəyi və "handmaid"lər isə uşaq dünyaya gətirə bilmək qabiliyyətini göstərən qırmızı rəngdə geyinir. Hər

kəs onların bu mövqelərini qəbul edirdi" [3, 86]. "Handmaidlər"i digər təbəqənin qadınlarından fərqləndirmək üçün həm də möhürləyirdilər. Topuqlarına döyülmüş göz onların daima nəzarət altında olduqlarına işarədir. Offred – əsərin baş qəhrəmanı qul əlaməti olaraq topuqlarına vurulan döyməni xatırlayaraq deyir: "*I can"t avoid seeing now, the small tattoo on my ankle. Four digits and an eye, a passport in reverse. It"s supposed to guarantee that I will never be able to face, finally into another landscape. I am too important, too scarce for that. I am a national resource*" [1, 96]. 'Mənim topuğumdakı döyməni görməmək mümkün deyil. Dörd rəqəm və göz – bunlar bizim pasportumuzdu. Bu mənim heç bir zaman başqa bir yerə getməyəcəyimi qarantiyasıdır. Mən çox vacibəm, təbii sərvətəm'.

Din Gileaddə qadınların idarə və istismar olunmasının arxasında duran əsas səbəblərdən biridir. Bibliya kitabının hakim olduğu totalitar cəmiyyət olan Gilead Respublikasında teokratiya hökm sürür və bu kitab qadınların istismar və idarə edilməsi üçün kişilər tərəfindən özlərinə uyğun formada istifadə olunur. Çoxarvadlılığa icazə verən köhnə nəşr onlara "handmaid"lərin təyin edilməsinə kömək edir. Beləliklə, din qadınları idarə etməyin ən asan yolu kimi qəbul edilir. Gileadin patriarxal cəmiyyəti tamamilə gender ayrıseçkiliyi üzərində qurulub və "handmaid"lərə onların yalnız uşaq dünyaya gətirmək üçün olduqları aşılanırdı. Uşaq dünyaya gələndən dərhal sonra "handmaid" onu komandirə və onun sonsuz olan həyat yoldaşına təslim edir və bundan sonra o artıq əvəzedici (surrogate) ana olmur.

Əsərin baş qəhrəmanı Offred və digər handmaidlər Gileaddə təhsildən məhrum edilmişdilər. Offredə görə təhsil yalnız onlar üçün qadağan edilmişdi, çünki hakim qüvvələr təhsilin onları əsirlikdən azad edə biləcək bir vasitə olduğunu düşünürdülər. *Klarer writes,"women from all classes of society . . . are excluded from any kind of written discourse. These measures aim at giving the male leadership all the advantages of a highly developed text-processing culture and of using these advantages purposefully against the women who are condemned to orality*" [4, 131]. Klare yazır:'cəmiyyətin bütün təbəqələrindən olan qadınlar ….. yazılı nitqin (ünsiyyətin) hər hansı bir formasından təcrid olunub. Bu qanun kişilərin yüksək inkişaf etmiş yazı mədəniyyətinin üstünlüklərinə sahib olmasına və bu üstünlükləri şifahi nitqə məhkum edilmiş qadınlara qarşı məqsədli şəkildə istifadə etməsinə yönəlib'.

Digər tərəfdən Gileaddə qadınların təhsilli olmaq bacarıqlarını əllərindən alırdılar. Offred əlində qələmi tutarkən qələmin onu barmaqları arasında həssas sanki canlı olduğunu hiss edir. "Mən onun qüvvəsini, onun yazdığı sözlərin qüvvəsini hiss edə bilirdim. Aunt Lydia qələmin təhlükəli olduğunu və bu kimi əşyalardan uzaq durmalı olduğumuzu deyirdi. Və onlar haqlı idi-

lər, o təhlükəli idi, yalnız onu tutmaq belə təhlükə yarada bilərdi" [1, 241]. Belə ki, oxumaq və yazmağın Offred və başqa "handmaid"lərə qadağan edilməsi onların əziyyət çəkdikləri qurban olmanın digər bir növü idi.

"Handmaid"lərə İncildən yalnız onların itaətkarlıqlarını gücləndirəcək cümlələr əzbərlətdirilirdi. Burada militarist kahinlər (aunt) handmaidləri onların yeni rollarına, Gilead cəmiyyətində yalnız uşaq dünyaya gətirmək üçün olduqlarına inandıraraq beyinlərini yuyurdular.Onlara yalnız bu vəzifələri xatırladılır və bu yolda uğurlu olmaqları üçün dua etməli olduqları söylənilirdi. Offred deyir: "biz yalnız hamilə qalmağımız üçün dua etməli idik" [1, 251].

Gilead cəmiyyətinin heç bir təbəqəsinə digərləri ilə ünsiyyət qurmağa icazə verilmirdi. Əsərin baş qəhrəmanı daxil olmaqla heç kimin tam söz hüququ yox idi. "Handmaid"lər danışmaq istəyəndə onların nitqi natamam olmalı idi ki, heç kim onları başa düşməsin.Offred bir-biri ilə necə ünsiyyət saxladıqlarını belə izah edir: "Biz səssiz şəkildə bir-birimiz ilə danışmağı öyrənmişdik. Alatoranlıqda biz bir-birimizə toxunur, dodaqlarımızın tərpənişindən bir-birimizi başa düşürdük" [1, 14].

Offredin bu cəmiyyətdə əziyyət çəkdiyi digər məsələ damazlıq biri kimi qəbul edildiyindən öz həqiqi mənindən məhrum edilməsi idi. Gilead iyerarxiyası Offred və onun kimi digər "handmaid"lərə aşağı təbəqənin insanı kimi baxırdı. Onlar hər şeylərindən – ailələrindən, geyimlərindən, ən əsası isə adlarından məhrum edilmişdilər. Gilead cəmiyyəti onların həqiqi kimliklərini məhv etmək üçün əsl adlarından istifadə etməyə icazə vermir və onları aid olduqları komandirlərinin (komandir-elit təbəqəni təmsil edən kişi) adları ilə adlandırırdı. Onlara "of" sözönü şəkilçisi və təyin edildikləri komandirin adından ibarət ad verilirdi. Məsələn, Offred (Of-fred) göstərir ki, o Fred adlı komandirin "handmaid"idir. Jessie Givner yazır:"Gileaddə insanları adlarından məhrum etdikləri kimi simalarından da məhrum etmək istəyirlər. İdarəçilər onları həqiqi kimliklərini məhv etmək üçün simalarını görməmələri üçün güzgülərin istifadəsinə icazə verilmirdi" [2, 58]. Ad bir insanın kimliyini, mənliyini göstərən əsasdır. Bir insanı adından məhrum etmək, onu kimliyindən, mənindən məhrum etmək deməkdir. Əsərin baş qəhrəmanı müəyyən müddət cəmiyyətin qurbanı olma faktını səssizcə qəbul etsə də, baş verənləri təhlil etdikcə mübarizə aparmalı olduğunu anlayırdı. O öz kimliyini, mənliyini yenidən qazanmaq üçün mübarizəyə başlayır.

Gilead cəmiyyəti qadınları qadınların əli ilə qurban verən mənfur bir cəmiyyət idi. Aunt Lidiya, Helena və Elizabet "handmaid"ləri idarə etmək üçün polad kabeldən istifadə edən zülmkar qadınlardır." İlk təhqir olaraq onlar bizim ayaqlarımızdan başlayırdılar. Onlara bizə necə əziyyət verdikləri və əllərimizi-ayaqlarımızı necə incitdikləri təsir etmirdi. Aunt Lidiya hə-

mişə deyirdi – Unutmayın bizim məqsədimiz üçün sizin əl və ayaqlarınız vacib deyil" [1,127].

Qadınları da zalım təsvir etməklə Marqaret Etvud istismarçı, imperialist və insanlığın yox olduğu cəmiyyətin qurulmasının səbəbkarının yalnız kişilər deyil, həmçinin buna görə qadınların da məsuliyyət daşıdığını göstərir. Marqaret Etvudun əksər əsərlərində qadınların istismar olunduğunu göstərməsinə baxmayaraq, bu əsərdə bəzi qadınlar kişilər kimi istismar edən olurlar.

Nəhayət, Offredin xilas olmasının ən əhəmiyyətli yolu öz hekayəsini başqalarına nəql etməsi idi. Offredə görə, şifahi nitq onun ümidinə, xilasolma vasitəsinə çevrilir. Öz hekayəsini nəql etməklə baş qəhrəman Gilead rejiminin yaratmış olduğu sakitliyi pozur və öz mübarizəsini nümayiş etdirir. Bütün bu çətinliklərə, Gilead cəmiyyətinin onun şəxsiyyətini alçaltmasına baxmayaraq əsərin baş qəhrəmanı mübarizə aparıb xilas olmağı bacarır. Nəhayət, o cəmiyyətin onun üzərində olan məhvedici təsirini anlayır və yeni kimlik qazanmaq uğrunda mübarizəyə başlayır. Offred yazıçı kimi yeni kimlik qazanır, öz həyatını, yaşadıqlarını kitab şəklində nəşr etdirir. Bu yolla o Gilead cəmiyyətini qadın hüquqlarını məhdudlaşdıran, oxumağı – yazmağı qadağa edən bir cəmiyyət kimi təsvir edir. Offred, nəhayət, özünü totalitar rejimin zəncirlərindən azad edə bilir. O Gilead Respublikasının qaçmasına mane olmaq üçün yaratdığı psixoloji və fiziki maneələri aşır və, nəhayət, öz azadlığına qovuşur.

**İstifadə olunmuş ədəbiyyat**


1. Atwood, Margaret. The Handmaid's Tale. Toronto: McClelland and Stewart, 1985
2. Givner, Jessie. Names, Faces and Signatures in Margaret Atwood's Cat's Eye and The Handmaid's Tale// Canadian Literature 133, 1992
3. Gomez, Christine. From Being an Unaware Victim to Becoming a Creative Non- Victim: A Study of Two Novels of Margaret Atwood.in Perspectives on Canadian Fiction, 1994.
4. Klarer, Mario. Orality and Literacy as Gender- Supporting Structures in Margaret Atwood's The Handmaid's Tale. Mosaic: Media Matters Technologies of Literary Production, 1995
5. MacKinnon, Catharine. Sex Equality. University Casebook Series. New York: Foundation Press, 2001
6. Rigney,Barbara Hill. Margaret Atwood (Women Writers). Palgrave, 1987

**Turkan Alieva**

**Summary**

**The Description of Women's Exploitation in Margaret Atwood's "Handmaid's Tale"**

One of the novels depicting that women identity is not accepted by the society is Handmaid's Tale written in 1985. This novel demostrates Margaret Atwood's dystopic views of reality. The events happened in Gilead Republic and the novel is about exploitation of women from the society. In this Republic, women do not have any human rights. The novel thoroughly shows futuristic, totalitar, frightening and cruel attitude of patriarchal society to women.

**Тюркан Алиева**

**Резюме**

**Проблема эксплуатации женщин в произведении Маргарет Этвуд "Рассказ Служанки"**

Одним из произведений, отражающих неприятие обществом женской идентичности, является «Рассказ Служанки» ("Handmaid's Tale"). Это произведение в нарочито гиперболической, даже гротескной форме отражает дистопические взгляды общества на проблему гендерного равноправия. В произведении "Рассказ Служанки" события происходят в Республике Гилеад и касаются изоляции женщин, лишенных основных прав человека. В статье рассматривается описание в произведении Этвуд жестокого, патриархального общества, которое полностью ограничивает права женщин.

*Rəyçilər: fil.f.d., prof.A.Sabitova, fil.f.d, dos. Z.Hüseynova*